**Gömrük tarifi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

**13 iyun 2013-cü il**
**№ 687-IVQ**

*Fəsil 4*
**Gömrük rüsumları üzrə güzəştlər**

**Maddə 19. Tarif güzəştləri və preferensiyaları**

19.1. Tarif güzəştləri və preferensiyaları gömrük sərhədindən keçirilən mallar üzrə gömrük rüsumundan azadetmə və gömrük rüsumu dərəcələrinin aşağı salınması, malın preferensial şərtlərlə gətirilməsi üçün tarif kvotaları şəklində verilən güzəştlərdir.

19.2. Mallar üzrə tarif güzəştlərinin verilməsi halları və qaydaları Gömrük Məcəlləsinə, bu Qanuna və müvafiq icra hakimiyyəti orqanının normativ hüquqi aktlarına uyğun olaraq tənzimlənir.

19.3. İstehsal ehtiyaclarını yerli xammal hesabına ödəmək mümkün olmadıqda, müvafiq icra hakimiyyəti orqanı konkret sahənin inkişafını təmin etmək məqsədi ilə istehsal təyinatlı xammalın və müasir texnologiyanı təmin edən avadanlığın idxalına konkret dövr *(bu Qanunun 20.0.17-ci və 20.0.19-cu maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla)* üçün nəzərdə tutulan tarif güzəştləri tətbiq edə bilər.

19.4. Mallar üzrə tarif preferensiyaları qanunvericilikdə və Azərbaycan Respublikasının xarici ölkələrlə və ya beynəlxalq təşkilatlarla bağladığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğu hallarda həmin ölkələrə, yaxud beynəlxalq təşkilatın üzv ölkələrinə münasibətdə qarşılıqlı və ya birtərəfli qaydada tətbiq edilir.

19.5. Mallar üzrə tarif güzəştləri və preferensiyaları bu Qanunun 20-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, fərdi xarakter daşıya bilməz:

19.6. Malların preferensial və qeyri-preferensial mənşəyinin müəyyən edilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

**Maddə 20. Gömrük rüsumlarından azad etmə**

20.0. Aşağıdakılar gömrük rüsumlarından azad edilirlər:

20.0.1. yüklərin, baqajın və sərnişinlərin beynəlxalq daşımalarını həyata keçirən nəqliyyat vasitələri, habelə onların yolboyu, dayanacaqlararası məntəqələrdə normal istismarı üçün zəruri olan və ya həmin nəqliyyat vasitələrinin qəzasının (sınmasının) nəticələrini aradan qaldırmaq məqsədi ilə xaricdən alınmış maddi-texniki təchizat və tədarük malları, yanacaq, ərzaq, dərman vasitələri və digər əmlak;

20.0.2. dənizdə *balıq və digər su bioresurslarının ovunu həyata keçirən* Azərbaycan Respublikası gəmilərinin və Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri tərəfindən icarəyə (fraxta) götürülmüş gəmilərin fəaliyyətini təmin etmək üçün gömrük ərazisindən çıxarılan maddi-texniki təchizat və tədarük malları, yanacaq, ərzaq, dərman vasitələri və digər əmlak, habelə həmin gəmilərdə gömrük ərazisinə gətirilən vətəgəçilik məhsulları;

20.0.3. xarici dövlətlərin nümayəndəlikləri və onların əməkdaşları, habelə digər qeyri-rezidentlər üçün Gömrük Məcəlləsində müəyyən edilmiş gömrük güzəştləri çərçivəsində gömrük sərhədindən keçirilən mallar;

20.0.4. gömrük ərazisindən çıxarılan və bu əraziyə gətirilən Azərbaycan Respublikasının milli valyutası, xarici valyuta və qiymətli kağızlar;

20.0.5. qanunla müəyyən edilmiş hallarda dövlətin mülkiyyətinə keçirilməli olan mallar;

20.0.6. yardım yükü kimi gətirilən, təbii fəlakət zonalarında zərərçəkmiş əhaliyə yardım göstərilməsi üçün göndərilən ərzaq məhsulları, mallar və nəqliyyat vasitələri, habelə müvafiq orqanların təbii fəlakətin nəticələrinin ləğvi ilə məşğul olan şəxsi heyəti üçün nəzərdə tutulmuş avadanlıq, xüsusi nəqliyyat vasitələri, ehtiyat hissələri, şəxsi əşyalar və digər mallar, habelə məktəblər, məktəbəqədər təhsil müəssisələri və müalicə ocaqları üçün pulsuz dərs vəsaitləri;

20.0.7. texniki yardım da daxil olmaqla, təmənnasız yardım və xeyriyyəçilik məqsədi ilə dövlətlərin və ya beynəlxalq təşkilatların xətti ilə gömrük ərazisinə gətirilən və ya bu ərazidən aparılan mallar, habelə qrant haqqında müqaviləyə və ya qərara əsasən qrant kimi alınan pul və (və ya) digər maddi yardımlar;

20.0.8. üçüncü ölkələr üçün nəzərdə tutulan və gömrük ərazisindən gömrük nəzarəti ilə tranzit xüsusi gömrük proseduru altında keçən mallar;

20.0.9. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada fiziki şəxslər tərəfindən gömrük sərhədindən keçirilən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallar;

20.0.10. gömrük ərazisinə qaytarılan milli mədəniyyət sərvətləri;

20.0.11. yığma idman komandaların hazırlığı ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən ölkəyə gətirilən idman avadanlığı və malları;

20.0.12. əcnəbi əməkçi miqrant Azərbaycan Respublikasında, Azərbaycan Respublikasının vətəndaşı olan əməkçi miqrant xarici ölkədə əmək fəaliyyətinə başlamaq və əmək fəaliyyətini başa vurduqdan sonra qayıtmaq üçün gömrük sərhədini keçərkən onun şəxsi əşyaları, məişət avadanlıqları, əmək fəaliyyəti üçün zəruri olan alətlər;

20.0.13. mallar (aksizli mallar istisna olmaqla) gömrük ərazisi xaricindən xüsusi iqtisadi zonaya idxal edildikdə, habelə gömrük ərazisi xaricindən xüsusi iqtisadi zonaya idxal olunmuş mallar xüsusi iqtisadi zonadan gömrük ərazisi xaricinə ixrac edildikdə;

20.0.14. xüsusi iqtisadi zonada istehsal və ya emal olunmuş mallar gömrük ərazisi xaricinə ixrac edildikdə, xüsusi iqtisadi zonada istehsal və ya emal olunmuş mallar

təmir, yekun-tamamlama işləri, nümunələrin sərgisi və digər bu kimi məqsədlərlə gömrük ərazisinə müvəqqəti idxal edildikdə;

20.0.15. gömrük ərazisində mallar xüsusi iqtisadi zonalar arasında idxal və ixrac edildikdə;

20.0.16. Gömrük Məcəlləsi ilə müəyyən edilmiş müvafiq gömrük prosedurlarına əsasən gömrük rüsumundan azad və ya qismən azad olunmuş mallar;

*20.0.17. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada investisiya təşviqi sənədini almış hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı — investisiya təşviqi sənədinin alındığı tarixdən 7 il müddətinə;*

*20.0.18. müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarının infrastrukturunun, istehsal sahələrinin yaradılması və tikintisi, habelə elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi məqsədi ilə sənaye, yaxud texnologiyalar parklarının idarəedici təşkilatı və ya operatoru tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı;*

*20.0.19. müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarında istehsal sahələrinin tikintisi, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi və istehsal məqsədi ilə sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı — rezidentin sənaye, yaxud texnologiyalar parklarında qeydiyyata alındığı tarixdən 7 il müddətinə;*

*20.0.20. müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye parkında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi fəaliyyətlə məşğul olan sənaye parkının rezidenti tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında həmin fəaliyyətin məqsədləri üçün bütün növ malların idxalı – 2016-cı il mayın 1-dən 5 il müddətinə.*

*Fəsil 5*

## Yekun müddəalar

### Maddə 21. Beynəlxalq müqavilələr

Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində bu Qanunla müəyyən edilmiş normalardan fərqli normalar olduqda, beynəlxalq müqavilələrdə nəzərdə tutulan normalar tətbiq edilir.

### Maddə 22. Qanunun pozulmasına görə məsuliyyət

Bu Qanunun tələblərinin pozulması qanunla müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

**Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**22 aprel 1998-ci il**

**№ 91**

Azərbaycan Respublikasının "Gömrük Məcəlləsi"nə və "Gömrük tarifi haqqında" Qanununa uyğun olaraq gömrük tarifləri mexanizminin daha da təkmilləşdirilməsi yolu ilə xarici iqtisadi əlaqələrin səmərəliliyinin artırılması, sahibkarlıq fəaliyyətinin, ölkədə rəqabətədavamlı məhsulların istehsalının inkişafı üçün lazımi şəraitin yaradılması və daxili bazarın qorunması məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

2 Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətinin əmtəə nomenklaturası malların beynəlxalq təcrübədə qəbul olunmuş təsnifat sisteminə uyğun olaraq aparılsın.

4. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının "Gömrük tarifi haqqında" Qanununun 33-cü maddəsinə uyğun olaraq aşağıdakılar gömrük idxal rüsumuna cəlb olunmur:

4.3. Beynəlxalq təşkilatların, xarici dövlətlərin hökumətlərinin, habelə dövlətlərarası və hökumətlərarası sazişlərə əsasən xarici hüquqi və fiziki şəxslərin ayırdıqları əvəzsiz maliyyə və texniki yardımları, qrantlar hesabına idxal olunan mallar;

4.4. təmənnasız paylanılması üçün humanitar yardım kimi fiziki şəxslər tərəfindən gətirilən mallar.

4.5. fövqəladə halların qarşısının alınması və bu halların nəticələrinin aradan qaldırılması məqsədilə maddi-texniki təchizat sisteminin yaradılması, seysmik-müşahidə məntəqələrinin və qəza-xilasetmə dəstələrinin yerləşdiriləcəyi bazaların təşkili və onların fəaliyyəti üçün Azərbaycan Respublikasının Fövqəladə Hallar Üzrə Dövlət Komissiyasının təsdiqedici sənədi əsasında idxal olunan xüsusi texniki vasitələr, avadanlıqlar, cihazlar, alətlər, komplektləşdirici məmulatlar, ehtiyat hissələri, ləvazimatlar və materiallar.

4.6. Neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü, ixrac boru kəmərləri haqqında və bu qəbildən olan digər sazişlərə uyğun olaraq Azərbaycan Respublikasına verilməsi nəzərdə tutulan əsas fondların, daşınar əmlakın və digər aktivlərin Azərbaycan Respublikasının Dövlət Neft Fonduna və ya hasilatın pay bölgüsü haqqında sazişlərdə Azərbaycan Respublikasını təmsil edən hüquqi şəxslərə hər hansı şəkildə təqdim edilməsi üzrə əməliyyatlar.

4.7. Azərbaycan Respublikası vətəndaşlarının pasportları və şəxsiyyət vəsiqələri blankları, onların fərdiləşdirilməsi, “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat- axtarış sisteminin yaradılması və tətbiqi, əl-barmaq izlərinin, güllə və gilizlər üzərindəki izlərinmüəyyən edilməsi üçün gətirilən

avadanlıqlar, məmulatlar, ləvazimatlar və materiallar, polisə telefon zənglərinin qəbulu üzrə xüsusi "102" xidmətinə - Zəng Mərkəzi Sisteminə (ZMS) daxil olan avadanlıqlar, məmulatlar, ləvazimatlar və materiallar, dəniz səviyyəsindən 1300 metrdən hündürlükdə yerləşən dağlıq ərazilərdə turizm sahəsində olan investisiya layihələrinin həyata keçirilməsi üçün, ehtiyaclarını yerli xammal və materiallar hesabına ödəmək mümkün olmadıqda, layihə çərçivəsində idxal edilən mallar.

4.8. lizinq müqaviləsinin obyekti olan qanunvericiliklə müəyyənləşdirilmiş təsnifat üzrə əsas vəsaitə aid, idxal gömrük rüsumlarından azad olunan daşınar əşyaların xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturası üzrə siyahısı təsdiq edilsin (əlavə olunur).

4.11. ixrac məqsədli neft-qaz fəaliyyəti ilə əlaqədar avadanlıq və materiallar (Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti tərəfindən ixrac məqsədli neft-qaz fəaliyyəti üzrə Azərbaycan Respublikasına idxal olunan avadanlıq və materialların təsdiq olunmuş siyahısı gömrük orqanlarına təqdim edildiyi təqdirdə).

4.13. Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi və onun tabeliyində olan müəssisələr tərəfindən müdafiə təyinatlı məmulatların yaradılması və istehsalı məqsədilə idxal edilən texnologiyalar, avadanlıqlar və dəstləşdirici hissələr.

4.14. Xüsusi iqtisadi zonaya idxal edilən mallar (aksizli mallar istisna olmaqla).

4.15. milli yığma komandaların hazırlığı ilə bağlı qanunvericiliklə müəyyən edilmiş qaydada ölkəyə gətirilən idman avadanlığı, texnikası və malları.

4.15. Azərbaycan Respublikasının Dövlət Taxıl Fonduna tədarük edilməsi məqsədi ilə idxal olunan taxıl və taxıl emalı məhsulları.

4.18. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən alınan qeydiyyat şəhadətnamələri, sürücülük vəsiqələri, qeydiyyat nişanları, xidmətlə bağlı digər blanklar və büdcə vəsaiti hesabına idxal olunan avadanlıqlar.

4.21. Azərbaycan Respublikası Dövlət Neft Fondunun aktivlərində yerləşdirilməsi üçün idxal olunan qızıl.

4.22. "Azərbaycan Respublikası Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin təsdiqedici sənədləri əsasında, alternativ və bərpa olunan enerji mənbələri üzrə fəaliyyətinə xüsusi icazə verilmiş şəxslər tərəfindən gömrük rüsumlarından azad olunmaqla idxal edilən, alternativ və bərpa olunan enerji və ondan səmərəli istifadə edilməsi sahəsində tətbiq olunan qurğuların, onların istehsalı üçün avadanlıqların hissə və ləvazimatlarının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə Siyahısı" təsdiq edilsin (əlavə olunur). *(Bu əlavə 10 il müddətində qüvvədədir)*

*4.23. "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təsdiqedici sənədinə əsasən, Mingəçevir Yüksək Texnologiyalar Parkının rezidenti olan hüquqi şəxs və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs tərəfindən gömrük rüsumlarından azad olunmaqla idxal edilən qurğuların, hissə və ləvazimatların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə Siyahısı" təsdiq edilsin (əlavə olunur).*

*(Bu əlavə dərc edildiyi gündən 30 (otuz) gün sonra (28.08.2015) qüvvəyə minir və 7 (yeddi) il müddətində qüvvədədir.*)

*4.25. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 3 iyun tarixli 1255 nömrəli Sərəncamına əsasən yaradılmış Qaradağ Sənaye Parkında gəmiqayırma fəaliyyəti ilə məşğul olan sənaye parkının rezidenti tərəfindən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədi əsasında həmin fəaliyyətin məqsədləri üçün bütün növ malların idxalı - 2016-cı il mayın 1-dən 5 il müddətinə.*

*4.26. Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təsdiqedici sənədinə əsasən, DVB-T və DVB-T2 standartına uyğun rəqəmli televiziya yayımı üçün avadanlıqlar və onlara aid ötürücü anten fider sistemləri.*

*4.28. "Velosiped istehsalı məqsədi ilə gömrük rüsumlarından azad olunmaqla idxal edilən ehtiyat hissələrinin xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə Siyahısı" təsdiq edilsin (əlavə olunur). (Bu qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir və 2 (iki) il müddətində qüvvədədir.)*

*4.29. "Qeyri-neft sektorunda istehsalın təşviqi məqsədi ilə idxal gömrük rüsumlarından azad olunan malların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə Siyahısı" təsdiq edilsin (əlavə olunur). Bu qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra (24.09.2017-ci ildə) qüvvəyə minir və 3 (üç) il müddətində qüvvədədir.)*

*4.30. Azərbaycan Respublikası Energetika Nazirliyinin təsdiqedici sənədlərinə əsasən, iri neft emalı zavodlarının yenidən qurulması layihələri çərçivəsində ölkəyə gətirilən avadanlıqlar və materiallar.*

6. Müəyyən edilsin ki, dövlətlərin, hökumətlərin və beynəlxalq təşkilatların, hüquqi və fiziki şəxslərin xətti ilə təmənnasız paylanılması üçün humanitar yardım kimi gətirilən malların gömrük rəsmiləşdirilməsində, həmin malları gətirən humanitar təşkilatlar Azərbaycan Respublikası ərazisində mövcud qaydada qeydiyyatdan keçməsi barədə sənədi, digər hüquqi və fiziki şəxslər isə Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının razılığını gömrük orqanlarına təqdim etməlidirlər.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 16 iyun tarixli 62 nömrəli qərarı, həmin qərarın 9-cu bəndi istisna olmaqla və 1997-ci il 15 iyul tarixli 79 nömrəli qərarı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına əlavələr və dəyişikliklər edilməsi barədə" 1998-ci il 5 avqust tarixli 167 nömrəli qərarının 1-ci bəndinin 5-ci və 6-cı abzasları və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına əlavələr və dəyişikliklər edilməsi barədə" 1998-ci il 30 oktyabr tarixli 218 nömrəli qərarının 1-ci bəndinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli qərarına aid olan hissələri qüvvəsini itirmiş hesab edilsin.

12. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2005-ci il 31 yanvar tarixli 12 nömrəli qərarı ilə
təsdiq edilmişdir

**Lizinq müqaviləsinin obyekti olan qanunvericiliklə müəyyənləşdirilmiş təsnifat üzrə əsas vəsaitə aid, idxal gömrük rüsumundan azad olunan daşınar əşyaların xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturu üzrə**

**S İ Y A H I S I**

| **XİF ƏN-in kodu** | **Mal mövqelərinin adları** |
|---|---|
| 1 | 2 |
| 842481 | -- kənd təsərrüfatı və bağçılıq üçün: |
| 842481 1000 | --- suvarma qurğuları |
| | --- digərləri: |
| 842481 3000 | --- daşınan qurğular |
| | ---- digərləri: |
| 842481 9100 | ----- traktorlara qoşulmaq və ya traktorlara yedəklənmək üçün nəzərdə tutulmuş tozpaylayan və səpələyən qurğular |
| 842481 9900 | ----- digərləri |
| 8428 20 300 0 | --- xüsusi olaraq kənd təsərrüfatında istifadə üçün nəzərdə tutulmuş pnevmatik qaldırıcılar və konveyerlər |
| 8428907100 | ----- kənd təsərrüfatı traktorlarına taxılmaq üçün hazırlanmış yükləyici qurğular |
| 8429 | Buldozerlər, dönməz və dönər kavahınlarla, qreyderlər və planirovşiklər, skreperlər, mexaniki kürəklər, ekskavatorlar, birçalovlu yükləyicilər, toxaclayıcı və yolbasan maşınlar, özügedən: |
| | - buldozerlər, dönməz və dönər kavahınlarla: |
| 8429 1 1 00 | -- tırtıllı: |
| 8429 1 1 001 0 | --- gücü 250 a.g (at gücü)-dən çox |
| 8429 1 1 002 0 | --- gücü 400 a.g. və çox, -50° C və aşağı hava temperaturlarında işləmək üçün nəzərdə tutulan |

| | |
|---|---|
| 8429 110090 | --- digərləri |
| 8429 190000 | -- digərləri |
| 8429 20 00 | - qreyderlər və planirovşiklər: |
| 8429 20 001 0 | - qreyderlər, gücü 350 a.g. və çox |
| 8429 20 009 0 | - digərləri |
| 8429 30 000 0 | - skreperlər |
| 8429 40 900 0 | - toxaclayıcı maşınlar |
| | - mexaniki kürəklər, ekskavatorlar və birçalovlu yükləyicilər: |
| 8429 51 | - frontal birçalovlu yükləyicilər: |
| 842951 1000 | --- yeraltı işlər üçün xüsusi hazırlanmış yükləyicilər |
| | --- digərləri: |
| 8429519100 | --- birçalovlu tırtıllı yükləyicilər |
| 8429 51 990 0 | --- digərləri |
| 8429 52 | -- tamdönər maşınlar: |
| 842952 1000 | --- tırtıllı ekskavatorlar |
| 8429 52 900 0 | --- digərləri |
| 8429 59 000 0 | -- digərləri |
| 8432 | Kənd təsərrüfatı, bağçılıq, meşə təsərrüfatı maşınları, torpağın hazırlanması və işlənməsi üçün; qazon və ya idman meydançaları üçün katoklar: |
| 8432 10 | - kotanlar: |
| 8432 10 100 0 | -- gavahınlı |
| 8432 10 900 0 | -- digərləri |
| | - dırmıqlar, kətmənlər, kultivatorlar, alaqaparan, kərkilər: |
| 8432 21 000 0 | -- diskli dırmıqlar |
| 8432 29 | -- digərləri: |
| 8432291000 | --- kətmənlər və kultivatorlar |
| 8432 29 300 0 | --- dırmıqlar |
| 8432 29 500 0 | --- torpaq frezləri |

| | |
|---|---|
| 8432 29 900 0 | --- digərləri |
| 8432 30 | - toxumsəpən, əkən və şitilbasdıran maşınlar: |
| | -- toxumsəpən: |
| 8432 30 110 0 | --- mərkəzi ötürücüsü olan dəqiq səpin aparan toxumsəpən |
| 8432 30 190 0 | --- digərləri |
| 8432 30 900 0 | -- əkən və şitilbasdıran maşınlar |
| 8432 40 | - üzvi və mineral gübrə səpələyiciləri və paylayıcıları: |
| 8432 40 100 0 | -- mineral və ya kimyəvi gübrələrin paylanması üçün |
| 8432 40 900 0 | -- digərləri |
| 8432 80 000 0 | - digər maşın |
| 8432 90 000 0 | - hissələri |
| 8433 | Kənd təsərrüfatı bitkilərinin yığılması və ya döyülməsi üçün maşın və ya mexanizmlər, presləyici-toplayıcılar, saman və quru otları kiplər formasında qablaşdırmaq üçün preslər daxil olmaqla; otbiçənlər və qazonbiçənlər; 8437 mal mövqeyində göstərilənlərdən başqa, yumurta, meyvə və ya digər kənd təsərrüfatı məhsullarının təmizlənməsi, sortlaşdırılması və ya çıxdaş edilməsi üçün maşınlar: |
| | - qazonlar, parklar və ya idman meydançaları üçün otkəsən maşınlar: |
| 8433 11 | -- motorlu, horizontal səth üzərində fırlanan kəsici hissə ilə: |
| 8433 11 1000 | --- elektriklə işləyən |
| | --- digərləri: |
| | --- özügedən: |
| 8433 11 5100 | ----- oturacaqlı |
| 8433 11 590 0 | ----- digərləri |
| 8433 11 900 0 | ---- digərləri |
| 8433 19 | -- digərləri: |
| | --- mühərrikli: |
| 8433 19 1000 | ---- elektriklə işləyən |
| | ---- digərləri: |
| | ----- özügedən: |

| | |
|---|---|
| 8433 19 510 0 | ------ oturacaqlı |
| 8433 19 590 0 | ------ digərləri |
| 8433 19 700 0 | ----- digərləri |
| 8433 19 900 0 | --- mühərriksiz |
| 8433 20 | - otbiçənlər, traktorlara bərkidilənlər daxil olmaqla, digərləri: |
| 8433 20 100 0 | - mühərriklə |
| | -- digərləri: |
| | --- traktor üçün, asma və ya yedəkli: |
| 8433205100 | ---- horizontal səth üzərində fırlanan kəsici hissə ilə |
| 8433 20 590 0 | ---- digərləri |
| 8433 20 900 0 | --- digərləri |
| 8433 30 | - küləş tədarükü üçün digər maşınlar: |
| 8433301000 | -- otçevirən, yan dırmıqları və samanqarışdıranlar |
| 8433 30 900 0 | -- digərləri |
| 8433 40 | - küləş və samandan kipbağlayan preslər, presləyici-yığıcılar daxil olmaqla: |
| 8433 40 100 0 | -- presləyici-yığıcılar |
| 8433 40 900 0 | -- digərləri |
| | - məhsul yığımı üçün digər maşınlar; taxıldöyən maşın və mexanizmlər: |
| 8433 51 000 0 | -- taxılyığan kombaynlar |
| 8433 52 000 0 | -- digər taxıldöyən maşın və mexanizmlər |
| 8433 53 | -- köklərin və ya meyvəköklülərin yığılması üçün maşınlar: |
| 8433 53 100 0 | --- kartofqazıyan və kartofyığan maşınlar |
| 8433 53 300 0 | --- çuğundurun tağını kəsən maşınlar və çuğunduryığan maşınlar |
| 8433 53 900 0 | --- digərləri |
| 8433 59 | -- digərləri: |
| | --- silosyığan kombaynlar: |
| 8433 59 110 0 | ---- özügedən |
| 8433591900 | ---- digərləri |

| | |
|---|---|
| 8433 59 300 0 | --- üzümyığan kombaynlar |
| 8433 59 800 0 | --- digərləri |
| 8433 60 000 0 | - yumurta, meyvə və ya başqa kənd təsərrüfatı məhsullarının təmizlənməsi, çeşidlənməsi və ya kalibrovka edilməsi üçün maşınlar |
| 8433 90 000 0 | - hissələri |
| 8434 | Sağıcı qurğu və aparatları, südün emalı və təkrar emalı üçün avadanlıqlar: |
| 8434 10 000 0 | - sağıcı qurğu və aparatları |
| 8434 20 000 0 | - südün emalı və təkrar emalı üçün avadanlıqlar |
| 8434 90 000 0 | - hissələri |
| 8435 | Preslər, xırdalayıcılar və şərabçılıq, sidr, meyvə şirələri və digər içkilərin istehsalı üçün analoji maşınlar: |
| 8435 100000 | - avadanlıqlar |
| 8435 90 000 0 | - hissələr |
| 8436 | Kənd təsərrüfatı, bağçılıq, meşə təsərrüfatı, quşçuluq və ya arıçılıq üçün avadanlıqlar, toxumların yetişdirilməsi üçün avadanlıqlar daxil edilməklə, mexaniki və ya qızdırıcı qurğularla, digərləri; quşçuluq üçün inkubatorlar və bruderlər: |
| 8436100000 | - heyvan yemi hazırlanması üçün maşın və mexanizmlər |
| | - quşçuluq üçün avadanlıqlar; inkubatorlar və bruderlər: |
| 8436 21 0000 | -- inkubatorlar və bruderlər |
| 8436 29 000 0 | -- digərləri |
| 8436 80 | - digər avadanlıqlar: |
| 8436 80 100 0 | -- meşə təsərrüfatı üçün maşın və avadanlıqlar |
| | -- digərləri: |
| 8436 80 910 0 | --- avtomişarlar |
| 8436 80 990 0 | --- digərləri |
| | - hissələr: |
| 8436 91 000 0 | -- quşçuluq və ya inkubatorlar və bruderlər üçün avadanlıqlar |
| 8436 99 000 0 | digərləri |
| 8437 | Toxum, taxıl və paxlalı bitkilərin təmizlənməsi, çeşidlənməsi və ya |

| | |
|---|---|
| | kalibrovka edilməsi üçün maşınlar; unüyütmə sənayesi üçün avadanlıqlar və ya taxıl və quru paxlalıların emalı üçün avadanlıqlar, kənd təsərrüfatı fermalarında istifadə olunan avadanlıqlardan başqa: |
| 8437 10 000 0 | - toxum, taxıl və ya quru paxlalı bitkilərin təmizlənməsi, çeşidlənməsi və ya kalibrovka edilməsi üçün maşınlar |
| 8437 80 000 0 | - digər avadanlıqlar |
| 8437 90 000 0 | - hissələri |
| 8438 | Bu qrupun başqa yerində adı çəkilməyən və ya təsnif olunmayan yeyinti məhsullarının və ya içkilərin sənaye istehsalı və ya hazırlanması üçün avadanlıqlar, heyvan və ya buxarlanmayan bitki mənşəli yağ və ya piylərin ekstraksiyası və ya hazırlanması üçün olan avadanlıqlardan başqa: |
| 8438 10 | - çörək-bulka məmulatları, makaron, spagetti və ya analoji məmulatların hazırlanması üçün avadanlıqlar: |
| 8438 101000 | -- çörək-bulka məmulatlarının istehsalı üçün avadanlıqlar |
| 8438 109000 | -- makaron, spagetti və ya analoji məhsulların istehsalı üçün avadanlıqlar |
| 8438 20 000 0 | - qənnadı sənayesi, kakao tozu və ya şokolad istehsalı üçün avadanlıqlar |
| 8438 30 000 0 | - şəkər sənayesi üçün avadanlıqlar |
| 8438 40 000 0 | - pivəbişirmə sənayesi üçün avadanlıqlar |
| 8438 50 000 0 | - ət və quş emalı üçün avadanlıqlar |
| 8438 60 000 0 | - meyvə, qoz-fındıq və ya tərəvəz emalı üçün avadanlıqlar |
| 8438 80 | - digər avadanlıqlar: |
| 843880 1000 | -- çay və kofe emalı üçün |
| | -- digərləri: |
| 8438 80 910 0 | --- içki hazırlanması və ya istehsalı üçün |
| 8438 80 990 0 | --- digərləri |
| 8438 90 000 0 | - hissələr |
| 8701 | Traktorlar (8709 mal mövqeyindəki traktorlardan başqa): |
| 8701 10 000 0 | - yanaşı gedən sürücü tərəfindən idarə olunan traktorlar |
| 8701 20 | - yarımqoşqular üçün təkərli traktorlar: |
| 8701 20 10 | -- təzələri: |

| | |
|---|---|
| 8701 20 101 0 | --- yəhərli dartıcılar |
| 8701 20 109 0 | --- digərləri |
| 8701 20 90 | -- istismar olunmuş: |
| 8701 20 901 0 | --- yəhərli dartıcılar |
| 8701 20 909 0 | --- digərləri |
| 8701 30 | - tırtıllı traktorlar: |
| 8701 30 100 0 | -- xizək trasları (yolları) çəkmək üçün |
| 8701 30 900 0 | -- digərləri |
| 8701 90 | - digərləri: |
| | -- kənd təsərrüfatı işləri üçün traktorlar (yanaşı gedən sürücü tərəfindən idarə olunan traktorlardan başqa) və meşə təsərrüfatı üçün traktorlar, təkərli: |
| | --- təzələri, mühərriklərinin gücü: |
| 8701 90 110 0 | ---- 18 kVt-dan çox olmayan |
| 8701 90 200 0 | ---- 18 kVt-dan yuxarı, lakin 37 kVt-dan çox olmayan |
| 8701 90 250 0 | ---- 37 kVt-dan yuxarı, lakin 59 kVt-dan çox olmayan |
| 8701 90 3100 | ---- 59 kVt-dan yuxarı, lakin 75 kVt-dan çox olmayan |
| 8701 90 350 0 | ---- 75 kVt-dan yuxarı, lakin 90 kVt-dan çox olmayan |
| 8701 90 3900 | ---- 90 kVt-dan yuxarı |
| 8701 90 500 0 | --- istismar olunmuş |
| 8701 90 900 0 | -- digərləri |

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2014-cü il 25 aprel tarixli
112 nömrəli qərarı ilə təsdiq edilmişdir

**Azərbaycan Respublikası Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin təsdiqedici sənədləri əsasında, alternativ və bərpa olunan enerji mənbələri üzrə fəaliyyətinə xüsusi icazə verilmiş şəxslər tərəfindən gömrük rüsumlarından azad olunmaqla idxal edilən, alternativ və bərpa olunan enerji və ondan səmərəli istifadə edilməsi sahəsində tətbiq olunan qurğuların, onların istehsalı üçün avadanlıqların hissə və ləvazimatlarının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə**

**S İ Y A H I S I**

| XİFMN üzrə kodu | Mal mövqelərinin adları |
|---|---|
| **1** | **2** |
| **Qrup 39-dan** | |
| 3917 21 900 9 | İstilik nasosları üçün polietilen boru zondlar |
| 3926 90 970 9 | İstilik nasosları üçün U-tipli plastik zondların ucluqları |
| **Qrup 70-dən** | |
| 7007 19 800 0<br>7007 29 000 0 | Günəş panellərinin və LED lampaların istehsalı üçün qoruyucu möhkəmləndirilmiş şüşə qatları |
| 7011 10 000 0 | Günəş panellərinin və LED lampaların istehsalı üçün şüşələr |
| **Qrup 73-dən** | |
| 7306 90 000 0 | Kiçik su elektrik stansiyaları üçün borular |
| 7308 90 100 0 | Kiçik su elektrik stansiyaları üçün şlüz qapılar |
| 7308 90 990 0 | Külək enerjili elektrik qurğuları üçün qara metaldan nərdivan qoyulan meydança, metal konstruksiyalar |
| 7311 00 990 0 | Biokütlə qurğuları üçün qazqolder, resiver çənləri |
| 7312 10 830 0 | Ölçü müşahidə stansiyaları üçün diametri 12-24 mm olan troslar |
| 7326 90 980 0 | Ölçü müşahidə stansiyaları üçün günəş panellərinin sıxacları, troslar üçün xamutlar və sıxaclar |
| **Qrup 76-dan** | |
| 7610 90 900 0 | Günəş panellərinin və LED lampaların istehsalı üçün günəş |

| | |
|---|---|
| | panellərinin quraşdırılma hissələri (çərçivələr-alüminium profillər) |
| **Qrup 84-dən** | |
| 8402 19 900 0 | Günəş elektrik və günəş istilik stansiyaları üçün buxar generatorları |
| 8404 20 000 0 | Geotermal stansiyalar üçün buxarlandırıcı kondensatorlar |
| 8406 82 000 0 | Günəş elektrik, günəş istilik və geotermal stansiyalar üçün buxar turbinləri |
| 8410 11 000 0<br>8410 12 000 0<br>8410 90 000 0 | Gücü 10 000 kVt-dan çox olmayan hidravlik turbinlər və su təkərləri, onların hissələri |
| 8413 | Kiçik su elektrik stansiyaları və biokütlə qurğuları üçün dişli çarxlı, fekal, istilik və mərkəzdənqaçma nasosları |
| 8414 | Biokütlə qurğuları və kiçik su elektrik stansiyaları üçün qaz kompressorları, vintli kompressorlar, porşenli kompressorlar |
| 8417 80 700 0 | Biokütlə qurğuları üçün xüsusi soba |
| 8419 19 000 0<br>8419 31 000 0<br>8419 39 000 0<br>8419 50 000 9 | Günəş kollektorları, geotermal stansiyalar və biokütlə qurğuları üçün qızdırıcılar, peyin quruducuları, isitmə cihazları, kondensatorlar, bivalent boylerlər, günəş panellərinin və LED lampaların istehsalı üçün soyuducu radiatorlar, günəş elektrik və günəş istilik stansiyaları üçün PV və optik konsentratorlar |
| 8419 89 989 0 | Biokütlə qurğuları üçün bioreaktor |
| 8421 19 700 0 | Biokütlə qurğuları üçün peyin separatorları |
| 8422 40 000 0 | Biokütlə qurğuları üçün duru peyinin qablaşdırılması üçün avadanlıq |
| 8424 30 010 0 | Günəş modulları şüşələrinin yuyulması üçün qurğu |
| 8428 | Külək qurğusunun qülləsinin içərisində avadanlıqların və adamların qaldırılıb və endirilməsi üçün lift; biokütlə qurğuları və LED lampaların istehsalı üçün konveyerlər; günəş modullarında istifadə edilən şüşələrin daşınması üçün yarımavtomat qurğular |
| 8443 19 700 0 | LED lampaların istehsalı üçün trafaret çap maşınları |
| 8456 10 001 0 | Günəş modullarının kənarlarının kəsilməsi üçün lazer dəzgah |
| 8461 50 900 0 | Günəş modulları üçün metal folqaların kəsilməsi üçün dəzgahlar |
| 8471 50 000 0 | Külək enerjili elektrik qurğularında istifadə olunan, qurğunun parametrlərinə aid məlumatları toplamaq, saxlamaq və ötürmək üçün yaddaş qurğuları |
| 8479 50 000 0<br>8479 89 970 0 | Günəş modullarının laminasiyası və modulların çərçivələnməsi, LED lampaların montajı və qablaşdırılması, LED lampaların istehsalı üçün SMD elektrik komponentlərinin avtomatik quraşdırılması və şüşə lövhələrin qaldırılması üçün qurğular |
| 8483 20 000 0 | Külək enerjili elektrik qurğuları rotorunun çarx topları |
| 8483 40 590 0 | Külək enerjili elektrik qurğularının reduktorları |
| **Qrup 85-dən** | |

| | |
|---|---|
| 8501 31 000 9 | Günəş elektrik və günəş istilik stansiyaları üçün PV hüceyrələri və fotoelementləri, optik konsentratorlar |
| 8501 61 800 9<br>8501 62 000 9<br>8501 63 000 9<br>8501 64 000 0 | Külək enerjili elektrik qurğuları, geotermal stansiyalar və kiçik su elektrik stansiyaları üçün generatorlar |
| 8502 39 800 0 | Biokütlə qurğuları üçün resiver çənləri, bioqaz-elektrik generatorları, kogenerasiya qurğuları |
| 8503 00 990 0 | Külək enerjili elektrik qurğusunun rotoru (turbini), qandolası (kabinəsi), rotorun pərləri, disk bağlayıcıları, istiqamətləndirici aparatlar, küləyin istiqamətini təyin edən quyruq hissə |
| 8504 21 000 0<br>8504 22 100 0<br>8504 22 900 0<br>8504 23 000 0<br>8504 32 000 0<br>8504 33 000 0<br>8504 34 000 0 | Külək enerjili elektrik qurğuları, günəş elektrik və günəş istilik stansiyaları, biokütlə qurğuları və kiçik su elektrik stansiyaları üçün güc, yağ, yüksəldici və ölçü transformatorları |
| 8504 40 820 0 | Kiçik su elektrik stansiyaları, günəş elektrik və günəş istilik stansiyaları, geotermal stansiyalar, biokütlə qurğuları və istilik nasosları üçün cərəyan düzləndiriciləri |
| 8504 40 840 9<br>8504 40 880 0 | Külək enerjili elektrik qurğularının invertorları |
| 8514 10 800 0 | LED lampaların istehsalı üçün lehim pastasını əritmə sobaları |
| 8515 19 000 0 | Elektrik naqillərinin günəş modullarına lehimlənməsi üçün cihazlar |
| 8517 61 000 9 | Kiçik su elektrik, günəş elektrik və günəş istilik stansiyaları, geotermal stansiyalar, biokütlə qurğuları, istilik nasosları və ölçü müşahidə stansiyaları üçün GSM radioötürücü qurğular |
| 8535 21 000 0<br>8535 29 000 0 | Külək enerjili elektrik qurğuları, günəş elektrik və günəş istilik stansiyaları, kiçik su elektrik stansiyaları, geotermal stansiyalar və istilik nasosları üçün açarlar, yağ açarları |
| 8535 30 900 0 | Külək enerjili elektrik qurğuları, günəş elektrik və günəş istilik stansiyaları və biokütlə qurğuları üçün ayırıcılar |
| 8535 40 000 0 | Külək enerjili elektrik qurğularında quraşdırılması üçün ildırımötürənlər, ölçü-müşahidə stansiyaları üçün torpaqlama kabeli, paratoner dəsti |
| 8535 90 000 0 | Kiçik su elektrik, günəş elektrik və günəş istilik stansiyaları üçün elektrik paylayıcıları |
| 8536 | Külək enerjili elektrik qurğuları, günəş elektrik və günəş istilik stansiyaları, biokütlə qurğuları, ölçü müşahidə stansiyaları, günəş |

| | |
|---|---|
| | panelləri və LED lampalar istehsal edən zavod üçün ayırıcılar, kabellərin birləşdirilməsi və toplanılması üçün qutu, kabel birləşmələri, kabel-rozetka dəsti, günəş panellərinin bloku (klem qutusu) |
| 8537 10 990 0<br>8537 20 910 0<br>8537 20 990 0 | Külək enerjili elektrik qurğuları, günəş elektrik və günəş istilik stansiyaları, kiçik su elektrik stansiyaları, geotermal stansiyalar, biokütlə qurğuları, istilik nasosları və ölçü-müşahidə stansiyaları üçün paylayıcı şit, idarəedici şkaflar, yüksəkgərginlikli mühafizəli kabinet |
| 8541 | Günəş panelləri və LED lampalar istehsal edən zavod üçün LED lampaların çipləri (işıq diodları)<br>Günəş panelləri, günəş elektrik və günəş istilik stansiyaları üçün PV və optik konsentratorlar<br>Günəş elektrik və günəş istilik stansiyaları üçün PV və optik konsentratorlar |
| 8544 20 000 0<br>8544 49 200 0<br>8544 49 950 0<br>8544 49 990 0<br>8544 60 100 0<br>8544 60 900 0<br>8544 70 000 0 | Külək enerjili elektrik qurğularında, günəş elektrik və günəş istilik stansiyalarında istifadə edilməsi üçün günəş panelləri və LED lampalar istehsal edən zavod üçün optik-lifli kabel (LVS), elektrik güc kabelləri, kommunikasiya kabelləri, birləşdirici naqillər |
| **Qrup 90-dan** | |
| 9015 80 110 0<br>9015 80 930 0 | Ölçü-müşahidə stansiyaları üçün anemometr, piranometr, günəş elektrik və günəş istilik stansiyaları üçün günəş ölçü sistemi: aktinometr, pirqeliometr |
| 9026 20 200 0 | Ölçü-müşahidə stansiyaları üçün pyezoelektrik hava təzyiqi sensoru |
| 9030 32 000 0<br>9030 89 300 0 | Günəş modullarının elektrik xarakteristikalarının yoxlanılması üçün tester qutusu, LED lampaların elektrik xarakteristikalarının yoxlanılması üçün qurğu, kiçik su elektrik stansiyaları üçün tənzimləyici qurğu |
| 9032 | Günəş elektrik və günəş istilik stansiyaları, geotermal stansiyalar, biokütlə qurğuları, istilik nasosları və kiçik su elektrik stansiyaları üçün avtomat elektron tənzimləyicilər, termostatlar |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2015-ci il 10 iyul tarixli 264 nömrəli qərarı ilə
təsdiq edilmişdir

***Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təsdiqedici sənədinə əsasən, Mingəçevir Yüksək Texnologiyalar Parkının rezidenti olan hüquqi şəxs və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs tərəfindən gömrük rüsumlarından azad olunmaqla idxal edilən qurğuların, hissə və ləvazimatların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə***

***S İ Y A H I S I***

| ***XİFMN üzrə kodu*** | ***Mal mövqelərinin adları*** |
|---|---|
| **1** | **2** |
| ***Qrup 84-dən*** | |
| *8471 70 500 0* | *yaddaş qurğuları: sərt maqnit disklərdə* |
| *8471 80 000 0* | *hesablayıcı maşınların digər qurğuları* |
| *8473 30 200 0* | *8471 mal mövqeyindəki maşınların hissələri və ləvazimatları: elektron modulları* |
| *8473 30 800 0* | *8471 mal mövqeyindəki maşınların hissələri və ləvazimatları: digərləri* |
| ***Qrup 85-dən*** | |
| *8528 51 000 0* | *digər monitorlar: yalnız və ya əsasən 8471 mal mövqeyində göstərilən hesablayıcı sistemlərdə istifadə olunan* |
| *8542 31 90* | *Elektron inteqral sxemlər: prosessorlar və kontrollerlər, yaddaş qurğuları ilə, dəyişdiricilərlə, məntiqi sxemlərlə, gücləndiricilərlə, sinxronizatorlarla və ya digər sxemlərlə birləşdirilmiş və ya birləşdirilməmişlər: digərləri* |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2017-ci il 21 iyun tarixli 267 nömrəli qərarı ilə
təsdiq edilmişdir

***Velosiped istehsalı məqsədi ilə gömrük rüsumlarından azad olunmaqla idxal edilən ehtiyat hissələrinin xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə***

***S İ Y A H I S I***

| *XİFMN üzrə kodu* | *Mal mövqelərinin adları* |
|---|---|
| **1** | **2** |
| *3917 32 000 0* | *Armaturlaşdırılmamış və ya ayrı materiallarla hər hansı bir formada birləşdirilməmiş, fitinqlərsiz velosipedlərin əyləc trosları üçün plastmasdan borucuqlar* |
| *3919 10 120 0* | *Eni 20 sm-dən çox olmayan rulonlarda vulkanlaşdırılmamış təbii və ya sintetik kauçukdan örtü ilə plastikləşdirilmiş polivinil-xloriddən və ya polietilendən zolaqlar və ya lentlər* |
| *3919 10 150 0* | *Eni 20 sm-dən çox olmayan rulonlarda vulkanlaşdırılmamış təbii və ya sintetik kauçukdan örtü ilə polipropilendən zolaqlar və ya lentlər* |
| *3919 10 190 0* | *Eni 20 sm-dən çox olmayan rulonlarda vulkanlaşdırılmamış təbii və ya sintetik kauçukdan örtü ilə digər zolaqlar və ya lentlər* |
| *3919 10 800 0* | *Eni 20 sm-dən çox olmayan rulonlarda digər plastmasdan digər örtü ilə zolaqlar və ya lentlər* |
| *3926 90 970 9-dan* | *Plastmasdan velosiped bayraqları* |
| *4010 31 000 0-dan* | *Velosipedlər üçün çevrəsinin uzunluğu 60 sm-dən çox olan, lakin 180 sm-dən artıq olmayan, tilli, en kəsiyi trapesşəkilli olan sonsuz ötürücü qayışlar (klinli qayışlar)* |
| *4011 50 000 0-dan* | *Velosipedlər üçün təzə pnevmatik rezin şinlər* |
| *4012 90 900 0* | *Rezin çənbər lentləri* |
| *4013 20 000 0-dan* | *Velosipedlər üçün rezin kameralar* |
| *4202 92 980 0-dan* | *Üz səthi toxuculuq materiallarından olan velosiped əl açarları və ləvazimatları üçün futlyarlar* |

| | |
|---|---|
| *7009 10 000 0-dan* | *Velosipedlər üçün arxa görünüş güzgüləri* |
| *7315 11 100 0-dan* | *Velosipedlərdə istifadə edilən qara metallardan olan rolikli şarnir zəncirləri* |
| *7315 19 000 0-dan* | *Velosipedlərdə istifadə edilən qara metallardan olan rolikli şarnir zəncirlərinin hissələri* |
| *7318 15 590 0* | *Xaçabənzər şlitsli başlıqlarla digər qara metallardan digər vintlər, boltlar, qaykaları və ya şaybaları ilə, dəstdə və ya onlarsız* |
| *7318 15 690 0* | *Digər qara metallardan daxili altıbucaqlı başlıqlarla digər vintlər və boltlar, qaykaları və ya şaybaları ilə, dəstdə və ya onlarsız* |
| *7318 15 810 0* | *Dartılma möhkəmliyi həddi 800 MPa-dan az olan digər qara metallardan altıbucaqlı başlıqlı boltlar, qaykaları və ya şaybaları ilə, dəstdə və ya onlarsız* |
| *7318 15 890 0* | *Dartılma möhkəmliyi həddi 800 MPa və ya daha çox olan digər qara metallardan altıbucaqlı başlıqlı digər boltlar, qaykaları və ya şaybaları ilə, dəstdə və ya onlarsız* |
| *7318 15 900 0* | *Digər vintlər və boltlar, qaykaları və ya şaybaları ilə, dəstdə və ya onlarsız* |
| *7318 16 100 0* | *Deşiyinin diametri 6 mm-dən çox olmayan, çubuqlardan, profillərdən və ya bütöv enkəsikli məftillərdən yonulmuş qara metallardan qaykalar* |
| *7318 16 500 0* | *Digər qara metallardan özüstoporlaşan (dayanan) qaykalar* |
| *7318 16 910 0* | *Daxili diametri 12 mm-dən çox olmayan digər qara metallardan qaykalar* |
| *7318 16 990 0* | *Daxili diametri 12 mm-dən çox olan digər qara metallardan qaykalar* |
| *7318 19 000 0* | *Qara metallardan yivlə təchiz edilmiş digər məmulatlar* |
| *7318 21 000 0* | *Qara metallardan yivsiz yaylı şaybalar və digər stopor şaybaları* |
| *7318 22 000 0* | *Qara metallardan yivsiz digər şaybalar* |
| *7318 23 000 0* | *Qara metallardan yivsiz pərçimlər* |
| *7318 24 000 0* | *Qara metallardan yivsiz şponlar və şplintlər* |
| *7318 29 000 0* | *Qara metallardan digər yivsiz məmulatlar* |
| *7604 21 000 0-dan* | *Velosipedlərin təkər çənbərləri üçün alüminium ərintilərindən içi boş profillər* |
| *7604 29 900 0-dan* | *Velosipedlərin təkər çənbərləri üçün alüminium ərintilərindən digər profillər* |
| *8204 11 000 0-dan* | *Velosipedlər üçün aralanmayan əl qayka açarları* |
| *8301 40 900 0-dan* | *Velosipedlər üçün qıfıllar* |
| *8307 10 000 9-dan* | *Fitinqlərlə və onlarsız velosipedlər üçün qiymətsiz metallardan digər elastik borular* |
| *8306 10 000 0-dan* | *Qiymətsiz metallardan velosiped zəngləri* |

| | |
|---|---|
| *8413 20 000 9-dan* | *Velosipedlər üçün əl nasosları* |
| *8482 10 100 0* | *Ən böyük xarici diametri 30 mm-dən çox olmayan diyircəkli podşipniklər* |
| *8482 10 900 0* | *Digər diyircəkli podşipniklər* |
| *8501 20 000 0-dan* | *Velosipedlər üçün gücü 37,5 Vt-dan çox olan dəyişən/sabit cərəyanlı universal mühərriklər* |
| *8501 31 000 9-dan* | *Velosipedlər üçün gücü 750 Vt-dan çox olmayan digər sabit cərəyanlı mühərriklər və sabit cərəyanlı generatorlar* |
| *8501 32 000 9-dan* | *Velosipedlər üçün gücü 750 Vt-dan çox olan, lakin 75 kVt-dan çox olmayan sabit cərəyanlı mühərriklər və sabit cərəyanlı generatorlar* |
| *8501 33 000 9-dan* | *Velosipedlər üçün gücü 75 kVt-dan çox olan, lakin 375 kVt-dan çox olmayan sabit cərəyanlı mühərriklər və sabit cərəyanlı generatorlar* |
| *8504 40 550 0-dan* | *Elektrik velosipedlərin akkumulyatorlarının yüklənməsi üçün qurğular* |
| *8507 60 000 9-dan* | *Velosipedlər üçün litium-ionlu elektrik akkumulyatorlar* |
| *8507 80 000 9-dan* | *Velosipedlər üçün digər elektrik akkumulyatorlar* |
| *8512 10 000 0-dan* | *Velosipedlərdə istifadə olunan işıqlandırıcı və ya vizual siqnalizasiya cihazları* |
| *8714 91 100 0* | *8711 və 8712 mal mövqelərindəki velosipedlər üçün ramalar* |
| *8714 91 300 0* | *8711 və 8712 mal mövqelərindəki velosipedlər üçün qabaq haçalar* |
| *8714 91 900 0* | *8711 və 8712 mal mövqelərindəki velosipedlər üçün ramaların və qabaq haçaların hissələri* |
| *8714 92 100 0* | *8711 və 8712 mal mövqelərindəki velosipedlər üçün çənbərlər* |
| *8714 92 900 0* | *8711 və 8712 mal mövqelərindəki velosipedlər üçün millər* |
| *8714 93 100 0* | *8711 və 8712 mal mövqelərindəki velosipedlər üçün ötmə muftalarsız və ya əyləc qurğularsız çarx topları* |
| *8714 93 900 0* | *8711 və 8712 mal mövqelərindəki velosipedlər üçün ötmə muftalarının zəncir ulduzcuqları* |
| *8714 94 100 0* | *8711 və 8712 mal mövqelərindəki velosipedlər üçün sərbəst hərəkətli çarx topları və vtulkalı əyləclər* |
| *8714 94 300 0* | *8711 və 8712 mal mövqelərindəki velosipedlər üçün digər əyləclər* |
| *8714 94 900 0* | *8711 və 8712 mal mövqelərindəki velosipedlər üçün əyləclərin, sərbəst hərəkətli əyləc çarx toplarının və vtulkalı əyləclərin hissələri* |
| *8714 95 000 0* | *8711 və 8712 mal mövqelərindəki velosipedlər üçün yəhərlər* |
| *8714 96 100 0* | *8711 və 8712 mal mövqelərindəki velosipedlər üçün pedallar* |
| *8714 96 300 0* | *8711 və 8712 mal mövqelərindəki velosipedlər üçün əyrişip mexanizmləri* |

| | |
|---|---|
| *8714 96 900 0* | *8711 və 8712 mal mövqelərindəki velosipedlər üçün pedalların və əyrişip mexanizmlərinin hissələri* |
| *8714 99 100 0* | *8711 və 8712 mal mövqelərindəki velosipedlər üçün sükanlar, tutacaqlar* |
| *8714 99 300 0* | *8711 və 8712 mal mövqelərindəki velosipedlər üçün yük yerləri* |
| *8714 99 500 0* | *8711 və 8712 mal mövqelərindəki velosipedlər üçün sürət dəyişdirici qurğular* |
| *8714 99 900 0* | *8711 və 8712 mal mövqelərindəki velosipedlər üçün digərləri; hissələr* |
| *9029 20 310 0-dan* | *Velosipedlər üçün spidometrlər* |
| *9503 00 100 0-dan* | *Uşaqlar üçün üçtəkərli velosipedlərin hissələri* |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 24 avqust tarixli 337 nömrəli qərarı ilə təsdiq edilmişdir

***Qeyri-neft sektorunda istehsalın təşviqi məqsədi ilə idxal gömrük rüsumlarından azad olunan malların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə***

***S İ Y A H I S I***

| ***XİFMN üzrə kodu*** | ***Mal mövqelərinin adları*** |
|---|---|
| **1** | **2** |
| ***Qrup 01-dən*** | |
| *0102 21* | *Safqanlı cins iribuynuzlu diri heyvanlar* |
| *0104 10 100 0* | *Safqanlı cins diri qoyunlar* |
| *0104 20 100 0* | *Safqanlı cins diri keçilər* |
| *0105 11 110 0* | *Çəkisi 185 qr-dan artıq olmayan ana və əcdad cinsi xətti ilə çoxaldılan ev toyuqlarının (Gallus domesticus) cücələrinin yumurtlayan növləri* |
| *0105 11 190 0* | *Çəkisi 185 qr-dan artıq olmayan ana və əcdad cinsi xətti ilə çoxaldılan ev toyuqlarının (Gallus domesticus) cücələrinin digər növləri* |
| ***Qrup 12-dən*** | |
| *1201 10 000 0* | *Toxumluq soya paxlaları* |
| *1206 00 100 0* | *Əkin üçün günəbaxan toxumu* |
| *1209 10 000 0* | *Əkin üçün şəkər çuğunduru toxumu* |
| *1209 22 100 0* | *Qırmızı üçyarpaq yonca toxumu (Trifolium pretense L.)* |
| *1209 29 600 0* | *Yem çuğundurunun toxumu (Beta vulgaris var.alba)* |
| ***Qrup 31*** | *Gübrələr* |
| ***Qrup 38-dən*** | |
| *3808-dən* | *Kənd təsərrüfatında istifadə edilən insektisidlər, rodentisidlər, funqisidlər, herbisidlər, bitkilərin boyartımına qarşı və boyartımını tənzimləyən vasitələr (3808 94 yarımmövqeyində göstərilən dezinfeksiyaedici vasitələrdən başqa)* |
| ***Qrup 84-dən*** | |
| *8419 31 000 0* | *Kənd təsərrüfatı məhsulları üçün qurudücular* |

| | |
|---|---|
| *8421 11 000 0* | *Süd separatorları* |
| *8421 21 000 1* | *Qida sənayesində istifadə edilən suyun filtrlənməsi və ya təmizlənməsi üçün avadanlıqlar və qurğular* |
| *8422 20 000 1* | *Ərzaq məhsullarının istehsalında istifadə olunan butulkaların və ya digər tutumların yuyulması və ya qurudulması üçün avadanlıqlar* |
| *8422 90 900 1* | *Ərzaq məhsullarının istehsalında istifadə olunan avadanlıqların hissələri* |
| *8424 81* | *Kənd təsərrüfatı və bağçılıq üçün suvarma qurğuları, traktorlara qoşmaq və ya traktorlara yedəkləmək üçün nəzərdə tutulmuş toz tozlandırıcıları və səpələyiciləri, daşınan və digər qurğular* |
| *8428 20 200 1* | *Xüsusi olaraq kənd təsərrüfatında istifadə üçün nəzərdə tutulmuş səpələnən materiallar üçün pnevmatik qaldırıcılar və konveyerlər* |
| *8428 90 710 0* | *Xüsusi olaraq kənd təsərrüfatı traktorlarına qoşmaq üçün hazırlanmış yükləyici qurğular* |
| *8432-dən* | *Kənd təsərrüfatı, bağçılıq, meşə təsərrüfatı maşınları, torpağın hazırlanması və işlənməsi üçün maşınlar (8432 80 000 1 alt yarımmövqeyində göstərilən qazon və idman meydançaları üçün katoklar istisna olmaqla)* |
| *8433-dən* | *Kənd təsərrüfatı bitkilərinin yığılması və ya döyümlənməsi üçün maşınlar və ya mexanizmlər, pres çeşidləyici, küləş və samanı kiplərə bağlayan preslər də daxil olmaqla; otbiçənlər; yumurtaların, meyvələrin və ya digər kənd təsərrüfatı məhsullarının təmizlənməsi, çeşidlənməsi və ya kalibrlənməsi üçün maşınlar (8433 11 və 8433 19 yarımmövqelərində göstərilən qazonlar, parklar və ya idman meydançaları üçün otbiçənlər istisna olmaqla)* |
| *8434* | *Sağıcı qurğu və aparatlar, südün emalı və təkrar emalı üçün avadanlıqlar* |
| *8436* | *Kənd təsərrüfatı, bağçılıq, meşə təsərrüfatı, quşçuluq və ya arıçılıq üçün avadanlıqlar, toxumların cücərdilməsi üçün mexaniki və ya qızdırıcı qurğulu avadanlıqlar da daxil edilməklə, digərləri; quşçuluq üçün inkubatorlar və bruderlər* |
| *8437* | *Toxum, taxıl və ya quru paxlalı bitkilərin təmizlənməsi, çeşidlənməsi və ya kalibrlənməsi üçün maşınlar; unüyütmə sənayesi üçün avadanlıqlar və ya taxıl və quru paxlalıların emalı üçün avadanlıqlar, kənd təsərrüfatı fermalarında istifadə olunan avadanlıqlardan başqa* |
| *8438* | *Bu qrupda başqa yerdə adı çəkilməyən və ya təsnif olunmayan yeyinti məhsullarının və ya içkilərin istehsalı və ya hazırlanması üçün avadanlıqlar, heyvan və ya uçucu olmayan bitki yağlarının və ya piylərin ekstraksiyası və ya hazırlanması üçün avadanlıqlardan başqa* |